**Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasının təmin edilməsi məqsədilə AzTU-da**

**2023/24 - 2027/28-ci tədris illəri ərzində icra ediləcək tədbirlərə dair**
**FƏALİYYƏT PLANI**

| İstiqamət | Tövsiyə | İcra ediləcək fəaliyyət | İcra müddəti *(başlanma və bitmə tarixi)* | İcraya məsul struktur(lar) | Hədəf indikatoru | Nəticə indikatoru | İcra vəziyyəti *(icra olunub, icra olunmayıb, icradadır)* | Fəaliyyətin icrası üçün ayrılan resurs(lar) *(İnsan, maliyyə, infrastruktur və s.)* | Qeyd |
|---|---|---|---|---|---|---|---|---|---|
| I istiqamət | "Azərbaycan Texniki Universitetinin 2021-2030-cu illər üçün İnkişaf Strategiyası" əsasında qısamüddətli və ortamüddətli dövr üçün SİP-in hazırlanması və Elmi Şurada təsdiq olunması | Universitetin qısamüddətli və ortamüddətli SİP-in hazırlanması. | 22.09.2023-25.12.2023 | Strateji məsələlər üzrə müşavir, Strateji İnkişaf Mərkəzi və digər struktur bölmələr | 1.AzTU-nun İnkişaf Strategiyasına əsasən hazırlanan mühəndis kadrların səviyyəsini beynəlxalq standartlar səviyyəsinə yüksəltmək.<br>2. Universitetin qısamüddətli və ortamüddətli SİP-in hazırlanması | Universitetin qısamüddətli və ortamüddətli SİP-in Elmi Şurada təsdiq olunması | İcradadır | - İnsan resursları<br>- İnfrastruktur | |
| I istiqamət | Universitetin digər struktur bölmələrində olan Strateji inkişaf planları ilə AzTU-nun fəaliyyət planlarının əlaqələndirilməsi və bunların icra edilməsi üçün vahid mexanizmin hazırlanması | Strateji İnkişaf Mərkəzini yaratmaqla bütün struktur bölmələr üzrə hazırlanmış Strateji inkişaf planlarının əlaqələndirilməsi və icrasının həyata keçirilməsinə nəzarətin təşkil edilməsi. | 10.01.2024 - 01.05.2024 | Strateji İnkişaf Mərkəzi | Strateji İnkişaf Mərkəzini yaratmaqla mərkəzləşdirilmiş nəzarət mexanizminin qurulması | Universitetin və onun struktur bölmələrinin fəaliyyət planlarının monitorinqinin təşkil edilməsi | İcradadır | - İnsan resursları | |
| I istiqamət | Növbəti illər üçün universitetin Strateji inkişaf planının hazırlanması zamanı tələbələrin, maraqlı tərəflərin (əmək bazarının nümayəndələrini və s.) və AzTU-nun bütün struktur bölmələrinin cəlb edilməsinin nəzərə alınması | Strateji inkişaf planının hazırlanmasına məsul komissiyanın yaradıması prosesində fəal tələbələrin, işəgötürənlərin və AzTU-nun bütün struktur bölmələrinin cəlb edilməsi. | 01.11.2023 - 10.01.2024 | AzTU-nun bütün struktur bölmələrinin nümayəndələri | Bütün maraqlı tərəflərin SİP-in hazırlanmasında iştirak etməsinin təmin olunması | SİP-in hazırlanması üzrə komissiyanın tərkibinin fəal tələbələrdən, işəgötürənlərdən və AzTU-nun müvafiq struktur bölmələrin nümayəndələrindən ibarət olması | İcradadır | - İnsan resursları | |
| I istiqamət | SİP-in dövri monitorinq nəticələrinin digər tərəflərin (tələbələr, əmək bazarının nümayəndələri və s.) məlumatlandırılması məqsədilə universitet veb-saytında paylaşılaraq əlçatanlığının təmin edilməsi | SİP-in icra vəziyyəti ilə əlaqədar keçirilmiş dövri monitorinq nəticələrinin AzTU-nun rəsmi veb-saytında yerləşdirilməsi. | Mütəmadi | Strateji İnkişaf Mərkəzi İctimaiyyətlə əlaqələr şöbəsi, İnformasiya-kommunikasiya texnologiyaları şöbəsi | SİP-in monitorinqi nəticəsində nail olunmuş nəaliyyətlərin ictimailəşdirilməsi | AzTU-nun İnkişaf Strategiyasına əsasən icra edilmiş işlər barəsində dövrü məlumatlara ictimaiyyətin əlçatanlığının təmin edilməsi | İcradadır | - İnsan resursları<br>- İnfrastruktur | |
| II istiqamət | Keyfiyyətin Təminatı sistemində bütün maraqlı tərəflərin (məsələn, işəgötürən və məzunların) iştirakının təmin edilməsi; | 1. Təhsil proqramlarının məzmununun və keyfiyyətinin əlavə monitorinqlərinin keçirilməsi və onların əmək bazarının tələblərinə uyğunluğunun təmin edilməsi üçün maraqlı tərəflərin nümayəndələrinin iştirakı ilə komissiyanın yaradılması;<br>2. Əmək bazarının gözləntiləri, məzunların kompetensiyalarının işəgötürənlər tərəfindən dəyərləndirilməsi və s. kimi sorğuların həyata keçirilməsi. | Komissiyanın yaradılması - 01.11.2023-01.03.2024<br><br>Sorğuların keçirilməsi - Mütəmadi | Keyfiyyətin Təminatı və Öyrətmə və Öyrənmə Mərkəzi, Fakültə dekanlıqları, İnformasiya-kommunikasiya texnologiyaları şöbəsi | Bütün maraqlı tərəflərin (təhsilverənlər, təhsilanlarlar, işəgötürənlər və s.) təhsilin keyfiyyətinin artırılması prosesinə cəlb edilməsi | Təhsildə keyfiyyətin artırılması məqsədilə bütün maraqlı tərəflərdən (təhsilverənlər, təhsilanlarlar, işəgötürənlər və s.) ibarət komissiyanın yaradılması | İcradadır | - İnsan resursları<br>- İnfrastruktur | |
| II istiqamət | Universitet əməkdaşlarının (dekan, kafedra müdirləri, professor-müəllim heyəti və s.) Keyfiyyət Siyasətinin reallaşmasına daha yaxından cəlb edilməsi; | 1. Struktur bölmələrin (kafedra,xarici əlaqələr və s.) tərkibində ictimai əsaslarla fəaliyyət göstərən Keyfiyyətin Təminatı üzrə koordinatorların təyin edilməsi;<br>2. Keyfiyyətin Təminatı və Öyrətmə və Öyrənmə Mərkəzi tərəfindən Keyfiyyət Siyasəti üzrə AzTU əməkdaşlarının maarifləndirilməsi məqsədilə vaxtaşırı görüşlərin keçirilməsi. | Keyfiyyət təminatı koordinatorlarının təyin olunması - 01.12.2023-01.03.2024<br><br>Görüşlərin keçirilməsi - Mütəmadi | Keyfiyyətin Təminatı və Öyrətmə və Öyrənmə Mərkəzi, Fakültə dekanlıqları, Kafedra müdirləri, Beynəlxalq əlaqələr şöbəsi | 1. Hər bir struktur bölmənin qəbul olunmuş Keyfiyyət Siyasəti sənədində göstərilən keyfiyyət təminatı müddəalarının davamlı və dayanıqlı icra edilməsi məqsədilə üzərinə düşən vəzifə və öhdəlikləri müəyyən etməsi;<br>2. Universitet daxilində mərkəzləşdirilmiş koordinasiya və əməkdaşlığın təmin edilməsi. | AzTU-da məsuliyyətli və şəffaf keyfiyyət siyasətini həyata keçirmək | İcradadır | - İnsan resursları<br>- İnfrastruktur | |
| II istiqamət | Universitetdə Keyfiyyət mədəniyyətinin aşılanması və Keyfiyyətin Təminatı və Öyrətmə və Öyrənmə Mərkəzinin fəaliyyətinin təhsilalanlar, maraqlı tərəflər, ictimaiyyət və s. üçün əlçatanlığını təmin etmək məqsədilə mərkəzin universitetin veb-saytında ayrıca səhifəsinin yaradılması; | 1. Universitetin veb-saytında Keyfiyyətin Təminatı və Öyrətmə və Öyrənmə Mərkəzinə aid səhifənin yaradılması və bu səhifədə bütün maraqlı tərəflərin müraciətinin qəbul edilməsi üçün elektron sistemin formalaşdırılması;<br>2. Keyfiyyətin Təminatı üzrə maarifləndirici məlumatların veb-səhifədə paylaşılması. | Veb səhifənin yaradılması - 23.01.2023 - 18.05.2024<br><br>Maarifləndirici məlumatların paylaşılması - Mütəmadi | Keyfiyyətin Təminatı və Öyrətmə və Öyrənmə Mərkəzi, İctimaiyyətlə əlaqələr şöbəsi, İnformasiya-kommunikasiya texnologiyaları şöbəsi | 1. Keyfiyyət təminatı mədəniyyətinin aşılanması və bu istiqamətdə maraqlı tərəflərin məlumatlandırılması;<br>2. Əks-əlaqənin yaradılması;<br>3. Müraciətlərin elektronlaşdırılmasının və məlumatların əlçatanlığının təmin olunması. | Universitetin rəsmi veb-saytında Keyfiyyətin Təminatı və Öyrətmə və Öyrənmə Mərkəzinə aid veb-səhifənin yaradılması | İcradadır | - İnsan resursları<br>- İnfrastruktur | |
| III istiqamət | Auditoriyaların müasir tədris resursları (auditoriyalarda kompüter və internet təchizatının, təqdimat aparatlarının az olması səbəbindən) ilə təchiz edilməsi; | 1. Bütün auditoriyaların kompüter, internet və proyektorla təmin olunması;<br>2. Kompüter laboratoriyalarının yaradılması;<br>3. İnteraktiv tədrisin təşkili üçün VR dəstəkli auditoriyaların formalaşdırılması. | 2023-2025 | İnformasiya-kommunikasiya texnologiyaları şöbəsi, Maliyyə və İqtisadiyyat şöbəsi, Maliyyə və Təminat departamenti, İnfrastruktur və Təsərrüfat şöbəsi | 1. İnteraktiv tədrisin təşkil edilməsi<br>2. Tələbələrə elmi-tədqiqat işlərinin aparılması üçün şəraitin yaradılması | Auditoriyaların və laboratoriya otaqlarının müasir avadanlıqlarla təmin edilməsi | icradadır | - İnsan resursları<br>- İnfrastruktur<br>- Maliyyə | |
| III istiqamət | Əsas fənn blokuna aid bəzi dərsliklərə Elm və Təhsil Nazirliyi tərəfindən qrifin verilməsi üçün müraciət edilməsi; | Tədris planlarının əsas fənn blokunda olan fənnlərin müəyyənləşdirilməsi və dərsliklərin hazırlanması | Mütəmadi | Tədris şöbəsi, Fakültə dekanlıqları, Kafedralar, Yüksək Təhsil İnstitutu və | Müasir tələblərə cavab verən dərsliklərin hazırlanması | Müasir tələblərə cavab verən dərsliklərə Elm və Təhsil Nazirliyi tərəfindən qrifin verilməsi | icradadır | - İnsan resursları<br>- Maliyyə | |
| III istiqamət | AzTU-da fəaliyyət göstərən bir sıra elmi-tədqiqat mərkəzlərinin tədris prosesinə inteqrasiyasının təmin edilməsi | Əmək bazarının araşdırılması və mövcud problemləri əks etdirən tədqiqat mövzularının müəyyən edilməsi | Mütəmadi | Tədris şöbəsi, Kafedralar, Yüksək Təhsil İnstitutu və Tədqiqat İnstitutları | 1. Universitetin tədqiqat potensialın artırılması;<br>2. Universitetin elmmetrik göstəricilərinin yüksəldilməsi;<br>3. Sənayeyönümlü problemlərin həll edilməsi | Tədqiqat mərkəzlərin təlim və tədris prosesinə cəlb olunması | icradadır | - İnsan resursları<br>- İnfrastruktur<br>- Maliyyə | |
| III istiqamət | Professor-müəllim heyətinin müasir təlim və tədris avadanlıqlardan istifadə bacarıqlarının təkmilləşdirilməsi üçün təlimlərin keçirilməsi; | 1. Professor-müəllim heyətinin Microsoft texnologiyalarından və alətlərindən istifadə bacarıqlarının müəyyənləşdirilməsi;<br>2. Müəyyən edilmiş ehtiyaca uyğun təlimlərin təşkili. | Mütəmadi | Tədris şöbəsi, Universitet-sənaye əməkdaşlığı və ömürboyu təhsil mərkəzi, İnsan resursları ilə iş şöbəsi İnformasiya-kommunikasiya texnologiyaları şöbəsi, | Professor-müəllim heyətinin İKT bacarıqlarının təkmilləşdirilməsi | Professor-müəllim heyətinin rəqəmsal savadlılığının və tədris bacarıqlarının artırılması üçün nəzərdə tutulmuş təlimlərin keçirilməsi | icradadır | - İnsan resursları<br>- İnfrastruktur | |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| III istiqamət | AzTU-da kitabxana fondunun müasir standartlara uyğun olaraq yenidən qurulması; | 1. "Erasmus+ KA2" proqramı əsasında AzTU Kitabxana İnformasiya Mərkəzinin Rəqəmsal bazasının yaradılması<br>2. Davamlı inkişafının təmin edilməsi üçün yerli və beynəlxalq lahiyələr üzrə iş və əməkdaşlığın həyata keçirilməsi | 01.11.2021 - 10.12.2028 | Kitabxana İnformasiya Mərkəzi, Beynəlxalq əlaqələr şöbəsi, Maliyyə və iqtisadiyyat şöbəsi | Təhsilverənlərin beynəlxalq səviyyəli akademik bazalara çıxışının təmin edilməsi | Müasir infrastruktura malik kitabxananın formalaşdırılması | icradadır | - İnsan resursları<br>- İnfrastruktur<br>- Maliyyə | |
| III istiqamət | Xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş gənc kadrların cəlb edilməsi | 1. Kadr siyasətinin müəyyənləşdirilməsi;<br>2. Dövlət Məşğulluq Agentliyi ilə əlaqənin genişləndirilməsi;<br>3. Prioritet istiqamətin reallaşdırılması üçün ehtiyac duyulan sahələr üzrə vakansiyaların veb-səhifədə yerləşdirilməsi. | 15.09.2024-15.09.2027 | İnsan resursları ilə iş şöbəsi, Beynəlxalq əlaqələr şöbəsi, Tədris şöbəsi, Maliyyə və Təminat departamenti, Maliyyə və iqtisadiyyat şöbəsi | Qlobal çağırışlara cavab verəcək yeni texnologiyaları çevik mənimsəyən, praktiki bilik və bacarıqlara yiyələnən, müasir və gələcək əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli və yüksəkixtisaslı peşəkar kadrların hazırlanmasını təmin etmək | Müasir kompetensiyalara malik akademik potensialının gücləndirilməsi | icradadır | - İnsan resursları<br>- İnfrastruktur<br>- Maliyyə | |
| III istiqamət | Təcrübəli və müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilərin cəlb olunması | 1. Müvafiq ixtisas sahələri üzrə təhsilalanların sayının akademik məsləhətçilərin sayına olan nisbətin müəyyən edilməsi;<br>2. Universitetin veb-səhifəsində elanların yerləşdirilməsi | 04.01.2023-14.07.2028 | İnsan resursları ilə iş şöbəsi, Tədris şöbəsi, Maliyyə və Təminat departament | Təhsilalanların ixtisaslarına uyğun kvalifikasiyalara sahib akademik məsləhətçilərin cəlb olunması | Kredit sistemi ilə tədrisin düzgün təşkil edilməsi | icradadır | - İnsan resursları<br>- İnfrastruktur<br>- Maliyyə | |
| III istiqamət | Təhsil proqramlarının dövri monitorinqi və qiymətləndirmə mexanizminin beynəlxalq təcrübəyə əsaslanaraq hazırlanması | 1.Təhsil proqramlarının dövri monitorinqi nəticəsində təhsil fəaliyyətinin güclü və zəif tərəflərini müəyyən etmək;<br>2.Təhsil proqramlarının qəbul olunmuş beynəlxalq standartlara uyğun qiymətləndirilməsinin təşkil edilməsi | 05.01.2024-01.03.2024 | Elmi-metodik Şura, Kafedralar, Tədqiqat İnstitutları, Tədris şöbəsi | Təhsil proqramlarının beynəlxalq standartara uyğunluğunun müəyyənləşdirilməsi | Müasir dövrün tələblərinə cavab verən təkmilləşdirilmiş təhsil proqramlarının hazırlanması | İcradadır | - İnsan resursları | |
| III istiqamət | Karyera və Məşğulluq Mərkəzinin fəaliyyət konsepsiyası və konkret fəaliyyət mexanizmlərinin hazırlanması | 1. Müəssisələrlə əməkdaşlıq haqqında müqavilələrin bağlanması;<br>2. Məzun və tələbələrin işəgötürənlərlə ilkin əlaqələrinin və gələcək karyeralarının qurulmasına dəstək göstərilməsi;<br>3. Karyera tədbirlərinin (sərgilər, karyera günləri, əmək yarmarkaları,informasiya turları və s.) həyata keçirilməsi | Mütəmadi | Karyera və Məşğulluq Mərkəzi, Fakültələr, Tələbə Gənclər Təşkilatı, Tələbə Həmkarlar Təşkilatı | 1. Gənc mütəxəssislərin əmək bazarının sosial və psixoloji şəraitlərinə uyğunlaşmasını təmin edən mexanizmin yaradılması;<br>2. Marketinq tədqiqatları nəticəsində mütəxəssislərin hazırlanması sisteminin təkmilləşdirilməsi. | 1. Ardıcıl olaraq keçirilən kompleks praktiki hazırlıqların tələbələrin sosial uyğunlaşmasını təmin edən mexanizmə çevrilməsi;<br>2. Əmək mobilliyinin artırılması. | İcradadır | - İnsan resursları | |
| III istiqamət | Məzunlara karyera xidmətlərinin göstərilməsi çeşidlərinin (CV hazırlanması, yumşaq bacarıqların formalaşdırılması, özünüinkişaf və s. mövzularda seminar və təlimlər) artırılması və əhatə dairəsinin genişləndirilməsi; | 1. Məzun və tələbələrin əmək bazarına inteqrasiyası üzrə aktiv məşğulluq tədbirlərinin təşkil olunması<br>2. Karyera məsləhət xidmətlərinin göstərilməsi (CV hazırlanması, yumşaq bacarıqların formalaşdırılması və s.);<br>3. Fəaliyyət göstərən şirkətlərdə vakant olan iş yerləri haqqında məlumatları mütəmadi şəkildə toplamaq və onların tələbələr, məzunlar arasında yayılmasını təmin etmək | Mütəmadi | Karyera və Məşğulluq Mərkəzi, Tələbə Gənclər Təşkilatı, Tələbə Həmkarlar Təşkilatı | Məzunların əmək bazarına rəqabətqabiliyyətli kadr olaraq yetişməsinin təmin edilməsi | 1. Əmək bazarının ehtiyaclarının qarşılanması üçün məlumat bazasının yaradılması;<br>2. Tələbələrin və məzunların karyera inkişafına metodiki dəstəyin göstərilməsi. | İcradadır | - İnsan resursları | |
| III istiqamət | Məzunlarla əlaqə və izləmə sisteminin təkmilləşdirilməsi; | 1. Universitetlə məzunlar arasında qarşılıqlı əlaqələrin təşkil edilməsi,<br>2. Məzunların karyera inkişafina dəstək göstərilməsi | 2024-2025 | Karyera və Məşğulluq Mərkəzi<br>İnformasiya-kommunikasiya texnologiyaları şöbəsi | 1. Universitetdə həyata keçirilən layihə və tədbirlərə məzunlarının cəlb olunması;<br>2. Uğurlu məzunlarla ənənəvi görüşlərinin təşkili; | Məzunlarla əlaqə və izləmə sistemində məzunların məlumat bazasının formalaşdırılması | İcradadır | - İnsan resursları | |
| III istiqamət | Universitetdə fəaliyyət göstərən nəşriyyatın işinin yenidən qurulması, maddi-texniki bazasının əsaslı şəkildə yenilənməsi və mətbəənin müasir avadanlıqlarla təchiz olunması | 1.Qeyri-işlək avadanlıqların işlək vəziyyətə gətirilməsi;<br>2. Müasir avadanlıqların alınması. | 2023-2024 | AzTU Press nəşriyyat şöbəsi, Satınalma və təminat şöbəsi, Maliyyə və Təminat departament, Maliyyə və iqtisadiyyat şöbəsi | Mətbəəni müasir avadanlıqlarla təchiz etməklə nəşriyyatın işinin yenidən qurulması | Nəşriyyatın normal xidmətinin təmin olunması | icradadır | İnsan, maliyyə | |
| III istiqamət | AMAS sisteminə doktorant və dissertantların da daxil edilməsi (beynəlxalq təcrübədə mövcuddur); | Doktorant və dissertantların beynəlxalq bazalarda arxivləşmiş, yüksək impakt faktorlu jurnallarda çap olunmuş məqalə sayının artırılması | 2024-2025 | Tədqiqat və inkişaf şöbəsi, Kafedralar, Tədqiqat İnstitutları | 1. Elmi əməkdaşlıq üzrə əlaqələrin genişləndirilməsi,<br>2. AzTU-nun inkişaf strategiyasına uyğun olaraq elmi fəaliyyətin dəstəklənməsi | 1. Doktorant və dissertantların dünya elminə inteqrasiyasına dəstək göstərmək;<br>2. AzTU-nun beynəlxalq səviyyədə elmi reytinqinin qaldırılmasına nail olmaq | icradadır | - İnsan resursları<br>- Maliyyə | |
| III istiqamət | Tələbə Elmi Cəmiyyətinin işinin daha da yaxşılaşdırılması; | 1. Keyfiyyətinin yüksəldilməsinə yönəldilmiş elmi-təşkilati tədbirlərin həyata keçirilməsi;<br>2. Tələbələrdə tədqiqatçılıq fəaliyyətinə və elmi metodların öyrənilməsinə motivasiyanın yaradılması;<br>3. Digər ali təhsil müəssisələrinin Tələbə Elmi Cəmiyyətləri ilə əməkdaşlığın həyata keçirilməsi. | Mütəmadi | Tələbə Elmi Cəmiyyəti, Tədqiqat və inkişaf şöbəsi, Kafedralar, Tədqiqat İnstitutları | 1. Tələbələrin elmi-tədqiqat fəaliyyətinin yeni sosial iqtisadi şəraitə uyğunlaşdırılması;<br>2. Elmi-tədqiqat və elmi-pedaqoji kadr hazırlığına istedadlı gənclərin məqsədyönlü şəkildə cəlb edilməsi. | 1. Elmi-texniki potensialın artırılması;<br>2. Tələbə elmi-tədqiqat işinin təşkilinə dair müasir forma və metodların tətbiq edilməsi. | icradadır | - İnsan resursları | |
| IV istiqamət | AzTU-da antiplagiat və akademik dürüstlük siyasətini əks etdirən sənədin hazırlanması və tətbiq olunması; | AzTU-da Antiplagiat və akademik dürüstlük siyasətini əks etdirən sənədin hazırlanması | 07.1.2024-28.06.2024 | Dayanıqlı inkişaf mərkəzi, Strateji İnkişaf mərkəzi, Tədqiqat və İnkişaf şöbəsi | Akademik dürüstlüyün təmin edilməsi | Akademik heyətin və tələbələrin antiplagiat və akademik dürüstlük siyasəti haqqında məlumatlı olması | İcradadır | - İnsan resursları | |
| IV istiqamət | Tədris hissəsinin tərkibində "Təcrübə şöbəsi və karyera mərkəzi"nin 2021/2022-ci tədris ilindən yeni yaradılan "Karyera və məşğulluq mərkəzi" ilə birləşdirilməsi və təcrübələrin təşkili funksiyasının da "Karyera və məşğulluq mərkəzi"nə verilməsi; | 1. Karyera və məşğulluq mərkəzi ilə Təcrübə şöbəsinin strukturda birləşdirilməsi;<br>2. Müxtəlif şirkət və sənaye müəssisələrinə təcrübə gəzintilərinin və ekskursiyaların təşkil edilməsi;<br>3. İş dünyasında uğur qazanmış şəxslərin tələbələrlə görüşlərinin təşkil olunması. | 2024-2025 | İnsan resursları departamenti, Hüquq sektoru, Maliyyə və Təminat departamenti | 1. Peşə hazırlığının təmin edilməsi, bilik və bacarıqlarının artırılması;<br>2. Əmək bazarının tələblərinə uyğun işçi qüvvəsinin formalaşdırılması. | 1. Tələbə və məzunların şəxsi inkişafına dəstək göstərilməsi;<br>2. Peşəkar ixtisaslaşma imkanlarının artırılması. | İcradadır | - İnsan resursları | |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| V istiqamət | AzTU-da daxili nəzarət sisteminin təkmilləşdirilməsi və bu fəaliyyət üzrə funksiyaların vahid strukturda cəmləşdirilməsi | Daxili audit şöbəsinin yaradılması, şöbənin əsasnaməsinin, vəzifə təlimatlarının hazırlanması və təsdiq edilməsi, şöbənin peşəkar kadrlarla komplektləşdirilməsi | 10.07.23-30.12.23 | İnsan resursları departamenti, Hüquq sektoru, Maliyyə və Təminat departamenti, İnsfrastruktur və təsərrüfat şöbəsi | Daxili audit şöbəsinin yaradılması və fəaliyyətinin təşkil edilməsi | Daxili audit şöbəsinin 2024-cü il üçün fəaliyyət planının təsdiq edilməsi | icra olunub | - İnsan resursları<br>- İnfrastruktur<br>- Maliyyə | |
| V istiqamət | Struktur bölmələrdəki icra sənədlərinin (fəaliyyət planı, hesabatlar və s.) tərtibat və keyfiyyət baxımından bir-birindən fərqlənməməsi üçün vahid formaya salınması | İcra sənədlərinin vahid formalarının müəyyən və təsdiq edilməsi | 10.07.23-10.06.24 | Strateji İnkişaf Mərkəzi, Ümumi şöbə, AzTU Press nəşriyyat şöbəsi, Maliyyə və Təminat departamenti, | İcra sənədlərinin vahid formalarının tətbiq edilməsi | 2023/2024-cü tədris ilinin yekun icra sənədlərinin vahid formada hazırlanması | icradadır | - İnsan resursları<br>- Maliyyə | |
| V istiqamət | Tələbə-Rektor, İctimai Şura institutlarının institusional inkişafı səviyyəsinin artırılması, ümumi məqsədlərin həyata keçirilməsi baxımından bu strukturların mandatlarının daha səmərəli reallaşdırılacağı istiqamətində məqsədyönlü tədbirlərin işlənib hazırlanması | 1. Tələbə-Rektor və İctimai Şura institutlarının institusional inkişafı səviyyəsinin artırılması, | Mütəmadi | Tələbə-Rektor, İctimai Şura, Strateji İnkişaf Mərkəzi, | Tələbə-Rektor, İctimai Şura institutlarının fəaliyyət planlarının işlənib hazırlanması | Tələbə-Rektor və İctimai Şuranın fəaliyyət planlarının təsdiq edilməsi | icradadır | - İnsan resursları | |
| V istiqamət | AzTU-da keçirilən islahatlara və hədəflərə uyğun olaraq orta və aşağı idarəetmə səviyyəsində peşəkar kadrların cəlb edilməsi | 1.Kadr ehtiyatlarının planlaşdırılması;<br>2. Kadrların bilik və bacarıqlarının inkişaf etdirilməsi;<br>3. Xidməti fəaliyyətin qiymətləndirilməsi. | Mütəmadi | İnsan resursları departamenti, Maliyyə və Təminat departamenti | "Azərbaycan Texniki Universitetində işə qəbul və işdən azad olunma üzrə Daxili Qaydalar"a uyğun olaraq, orta və aşağı idarəetmə səviyyələrinin vakant vəzifələrinə peşəkar kadrların seçilməsi | 1. Struktur bölmələrin orta və aşağı idarətmə səviyyələrinə peşəkar kadrların təyin edilməsi;<br>2. Kadrların sosial təminatının yaxşılaşdırılması. | icradadır | - İnsan resursları<br>- Maliyyə | |
| V istiqamət | Universitet tərəfindən təqdim olunan məlumatların qeyri-dəqiqliyini və universitetdə sturkturlararası koordinasiyanın zəif olduğunu nəzərə alaraq gələcəkdə bu problemin aradan qaldırılması | 1. Elektron sənəd dövriyyəsi (ESD) sisteminin alınması;<br>2. Müvafiq təlimlərin keçirilməsi;<br>3. Məlumat əlçatanlığının təmin edilməsi. | 10.07.23-30.12.24 | Ümumi şöbə, İnformasiya-kommunikasiya texnologiyaları şöbəsi, Maliyyə və Təminat departamenti | Sturkturlararası koordinasiyanın gücləndirilməsi məqsədi ilə elektron sənəd dövriyyəsi (ESD) sisteminin tətbiq edilməsi | Sturkturlararası koordinasiyanın yaxşılaşdırılması | icradadır | - İnsan resursları<br>- İnfrastruktur<br>- Maliyyə | |
| V istiqamət | Universitetdə ictimaiyyətlə əlaqələrin idarə edilməsi ilə bağlı ayrıca struktur bölmənin yaradılması | 1. İctimaiyyətlə əlaqələr şöbəsinin yaradılması üçün kadr ehtiyacının planlaşdırılması;<br>2. Şöbənin əsasnaməsinin, vəzifə təlimatlarının və fəaliyyət planının hazırlanması. | 10.07.23-30.12.23 | İnsan resursları departamenti, İctimaiyyətlə əlaqələr şöbəsi, Maliyyə və Təminat departamenti | İctimaiyyətlə əlaqələr şöbəsinin yaradılması və fəaliyyətinin təşkili | İctimaiyyətlə əlaqələr şöbəsinin əsasnaməsinin, vəzifə təlimatlarının və fəaliyyət planının təsdiq edilməsi | icra olunub | - İnsan resursları<br>- İnfrastruktur<br>- Maliyyə | |
| V istiqamət | Universitetin Kommunikasiya strategiyasının hazırlanması | 1. İnkişaf etmiş informasiya və kommunikasiya infrastrukturunun yaradılması;<br>2. informasiya və kommunikasiya xidmətlərinin genişləndirilməsi;<br>3. İnformasiya təhlükəsizliyinin təmin olunması. | 10.07.23-10.06.24 | İctimaiyyətlə əlaqələr şöbəsi, Strateji İnkişaf Mərkəzi, İnsfrastruktur və təsərrüfat şöbəsi, İnformasiya-kommunikasiya texnologiyaları şöbəsi | Koordinasiya, kommunikasiya və şəbəkələşmə baxımından kommunikasiyanın təkmilləşdirilməsi | Kommunikasiya strategiyasının hazırlanması və təsdiq edilməsi | icradadır | - İnsan resursları | |
| VI istiqamət | Universitetdə çalışan professor-müəllim heyətinin və tələbələrin sayını nəzərə alaraq növbəti illərdə yeməkxananın tutumunun böyüdülməsi və ya ikinci bir yeməkxananın açılması; | Böyük həcmli yeməkxananın qurulması üçün layihənin hazırlanması | 2023-2024 | İnsfrastruktur və təsərrüfat şöbəsi, Maliyyə və təminat şöbəsi | Sanitariya-gigiyena tələblərinə cavab verən iritutumlu yeməkxananın yenidən qurulması | Əməkdaşların və tələbələrin sağlam qidalanmasının təmin edilməsi | İcradadır | - İnsan resursları<br>- İnfrastruktur<br>- Maliyyə | |
| VII istiqamət | Əcnəbi tələbələrin universitetə cəlb olunması istiqamətində tədbirlərin artırılması; | 1. Universitetin nüfuzlu beynəlxalq reytinq cədvəllərində yer alması;<br>2. Təhsillə bağlı beynəlxalq layihə və qrantların cəlb edilməsi;<br>3. Müəllimlərin xarici dil biliklərinin artırılması;<br>4. Xarici ölkə universitetləri ilə ikitərəfli əməkdaşlığın yaradılması;<br>5. Beynəlxalq təhsil proqramlarında iştirakı etmək. | Mütəmadi | İctimaiyyətlə əlaqələr şöbəsi, Beynəlxalq əlaqələr şöbəsi, İnsfrastruktur və təsərrüfat şöbəsi, Maliyyə və Təminat departamenti | 1. Universitetin beynəlxalq təhsil məkanına inteqrasiyasının genişləndirilməsi;<br>2. Əcbəbi tələbə qəbulunun artırılması. | Xarici vətəndaşlara universitetə qəbul ilə bağlı ətraflı və operativ məlumatın əlçatanlığın təmin edilməsi | icradadır | - İnsan resursları<br>- İnfrastruktur<br>- Maliyyə | |
| VII istiqamət | Beynəlmiləlləşmə siyasətinin növbəti illər üçün yenilənməsini və daha da təkmilləşdirilməsini; | 1. Təhsil proqramlarının beynəlxalq təcrübəyə uyğunlaşdırılması;<br>2. Müvafiq beynəlxalq təşkilatlarla işbirliyinin artırılması;<br>3. Universitetdə tədris və tədqiqatın innovativ inkişafını dəstəkləmək. | 01.12.2023-30.12.2023 | Beynəlxalq əlaqələr şöbəsi, Strateji İnkişaf Mərkəzi, Maliyyə və təminat şöbəsi, Fakültələr, Tədris şöbəsi | 1. Qlobal səviyyədə bacarıqlı vətəndaş və peşəkarların yetişməsinə nail olmaq;<br>2. Beynəlxalq rəqabətliliyin artırılması;<br>3. Universitetlər beynəlxalq tədqiqat proqramları ilə əməkdaşlıq edilməsi;<br>4. İkili diplom proqramlarında iştirak edəcək tələbə sayının artırılması. | Beynəlmiləlləşmə siyasətinin yenilənməsini və təkmilləşdirilməsini təmin etmək. | icradadır | - İnsan resursları<br>- Maliyyə | |
| VII istiqamət | Xarici əlaqələr şöbəsinin Fəaliyyət planının hazırlanması; | 1. Xarici vətəndaşlarla iş, qarşılıqlı əməkdaşlıq əlaqələrinin qurulması<br>2. Beynəlxalq əməkdaşlıq çərçivəsində tələbələr üçün yaradılmış imkanların genişləndirilməsi və idarə edilməsi<br>3. Beynəlxalq konfranslar, seminarlar və digər tədbirlərin təşkili<br>4. Xarici ölkə universitetləri ilə əməkdaşlıq əlaqələrinin qurulması | 01.07.2023-30.09.2023 | Beynəlxalq əlaqələr şöbəsi, İctimaiyyətlə əlaqələr şöbəsi, Maliyyə və təminat şöbəsi, Fakültələr, Tədris şöbəsi, İnsan resursları departamenti, | 1. Beynəlxalq tərəfdaş universitetlər ilə müqavilələrin bağlanılması<br>2. Mevlana, DAAD, Erasmus + kimi müxtəlif mobillik proqramlarında tələbə, işçi heyəti və tədqiqatçı mobilliyinin inkişaf etdirilməsi | Şöbənin fəaliyyət planının hazırlanması və təsdiq edilməsi | icra olunub | - İnsan resursları<br>- Maliyyə | |
| VII istiqamət | Xarici dilli (xüsusilə ingilis dili) kadrların tədris prosesinə cəlb edilməsi | 1. Xarici universitetlərlə tələbə, müəllim mübadiləsinin genişlənməsi;<br>2. Xarici ölkələrin mütəxəssisləri ilə birgə tədris-metodiki materialların hazırlanması və nəşri;<br>3. Respublika və beynəlxalq səviyyəli konfranslara Avropanın,Türkiyənin və digər ölkələrin professor - müəllimlərinin dəvət edilməsi; 4. Ehtiyac olunan fənlər üzrə vakansiyaların elan olunması. | Mütəmadi | Beynəlxalq əlaqələr şöbəsi, Strateji İnkişaf Mərkəzi, Maliyyə və təminat şöbəsi, Fakültələr, Tədris şöbəsi, İnsan resursları departamenti, | 1. Əcnəbi professor-müəllimlərin tədris prosesinə cəlb olunması;<br>2. Elmi kadrların səviyyəsinin artırılması üçün partnyor universitetlərlə əməkdaşlığın inkişafı etdirilməsi;<br>3. İxtisaslar üzrə ingilis dilində tədrisin aparılması. | Beynəlxalq səviyyəli mütəxəssis və tədqiqatçıların yetişdirilməsinə nail olmaq. | icradadır | - İnsan resursları<br>- Maliyyə | |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| VII istiqamət | Beynəlmilləşmə prosesi çərçivəsində əldə edilən nəticələrin dinamikasına nəzarət üçün xüsusi mexanizmin hazırlanması | 1. Universitetdə tələbə və müəllimlərin beynəlxalq proqramlarda fəal iştirakını təmin etmək;<br>2.Təhsilalanların və təhsilverənlərin beynəlxalq səviyyəli layihərədə iştirakına dəstək göstərmək.<br>3. Statistik hesabatlılığın təmin olunması. | 30.09.2023 - 01.03.2024 | Beynəlxalq əlaqələr şöbəsi, Strateji İnkişaf Mərkəzi, Fakültələr, Tədris şöbəsi, | KPI-ları mütəmadi olaraq nəzərdən keçirmək və beynəlxalq mühitinin tələblərinə uyğun mexanizmin qurulması. | KPI-ların daimi təhlil edilməsi əsasında:<br>1. Qərar vermək<br>2. Strateji inkişaf üzrə qısamüddətli və uzunmüddətli fəaliyyət planlarını hazırlamaq<br>3. Uzunmüddətli uğurlara nail olmaq | icradadır | - İnsan resursları | |
| VII istiqamət | Universitetin Beynəlmilləşmə siyasətinə uyğun olaraq fəaliyyət planında qarşıya qoyulmuş məsələlərin icrası zamanı əldə edilən nəticələrin yerinə yetirilməsinə və dinamikasına nəzarət üçün xüsusi mexanizm yaradılması | Fəaliyyət planına uyğun olaraq işlərin icrasına və beynəlmiləlləşmə üzrə qoyulan meyarlara əsasən monitorinqlərin təşkil edilməsi | 10.01.2024 - 30.07.2024 | Beynəlxalq əlaqələr şöbəsi İnformasiya-kommunikasiya texnologiyaları şöbəsi | Beynəlmiləlləşmə siyasətinə uyğun olaraq icra edilən işlərin nəticələri əsasında təhlillərin aparılmasına nəzarət edən mexanizmin hazırlanması | KPI-ların müntəzəm olaraq yenilənməsi və təkmilləşdirilməsi | icradadır | - İnsan resursları<br>- İnfrastruktur<br>- Maliyyə | |